# XIX ƏSRİN SONU, XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BAKI ƏDƏBİ MÜHİTİNDƏ
# XALQI BİRLƏŞDİRMƏK İDEYALARI

*(Əvvəli ötən sayımızda)*

Səmalardan seçilməz türkün mavi bayrağı,
Yenə əski şan ilə türk yurduna dikilsin.
İştə Turan, iştə yurd, iştə türklük orağı,
Yabançıya düşəməz, duruyorkən sən özün.

Tarixlərdə həp sənin rəşadətin, hünərin,
Bildirirsin furtinan oxunarkən sən neçin,

Avropaya qarşı bir,
Yersiz, yurdsuz əsirtək boynubükük durasan?
Yüz yıllarca əzildin, ayaqlandın yetişər,
Yüz yıllarca hıçqırdın, ayaqlandın, əzildin,
Yüz yıllarca əzildin, ayaqlandın yetişər.
[1.,s.142]

Sovet Hökumətinin irticaçılığı, faşistliyi, insanlığa sığmayan qəddarlığı da bundan ibarət idi ki, Azərbaycanı işğal eləyəndən sonra kommunist qiyafəsinə bürünmüş cəlladlar Azərbaycan Xalq Demokratik Cumhuriyyətinin vaxtında istiqlal, hürriyyət, vətən, xalq, millət, azadlıq haqqında yazıb-yaradan şairlərə, yazıçılara qarşı amansız tədbirlər görür, Şimal buzlu okean sahillərində ən azı 50 dərəcə şaxtada yerləşən həbs düşərgələrinə göndərir, orda dəhşətli işgəncələr verərək 50 dərəcə şaxtanın altında çılpaq halda saxlayıb öldürürdülər.

1927-ci il mart ayının əvvəllərində AXDC-nın fəal iştirakçısı Şuşa şəhərində böyüyüb boya başa çatmış Əliyusifi (Əli Yusifzadə Rai), İsfəndiyar Vəkilli, Niyazi Muini, Mehdi Sultanzadəni, Sadıq İmanəni, Nəsrulla İsrafilzadəni, Möhsün bəy Daşdəmirzadəni və başqaları da daxil olduğu azərbaycanlı məhbuslar qrupu Solovki, Şimal buzlu okeanın Ağ dənizin Oneqa körfəzindəki adalardakı həbs düşərgələrinə gətirdilər. Bu qrupda əsasən zabit və maarifçi ziyalılar var idi. Onları Baltik-Amur kanalının çəkilişində işlətməyə başlayıblar. Əliyusif onlardan əvvəl gətirilmiş araşdırıcı şair Əbdülrəhman Dai, Cabbar Kələntərli, B.Səfizadə, Muradxan Naxçıvani, Abasqulu, Həmid Kəngərli, Səlimzadə və başqaları ilə görüşüb. Onları İlik donduran şaxtada işlədib, qurd basmış balıqdan hazırlanmış xörəklər yedizdirirdilər. Bu səbəbdən də günahları yalnız xalqlarını azad görmək olan insanlar həm ilik donduran soyuqdan, həm də qurd basmış balıqları yeməkdən zəhərlənmədən ölürdülər.

İstiqlal şairi Ümgülsümü isə məhz istiqlal şeirləri yazdığına, eyni zamanda AXDC-nın təbliğatçılarından biri Seyid Hüseynin ömür-gün yoldaşı olduğuna görə həbsə alaraq əvvəlcə Bayıl həbsxanasında saxlamış, sonra isə yeddi illiyə Mordva vilayətinə sürgün eləmişdilər. 1944-cü ildə sürgündən azad olsa da, doğma şəhəri Bakıda yaşamağa icazə verilməmiş, buna görə Şamaxıda məskunlaşmış, orda da acından ölmüşdür. Məsələ burasındadır ki, 1971-ci ildə Ümgülsümün həyatı və yaradıcılığı haqqında məqalə yazan Rasim Tağıyevi buna görə Sovet Hökumətinin məmurları çox incitmişdilər. Rasim Tağıyevdən sonra isə Cumhuriyyət tərənnüçşüsü Aybəniz xanım Əliyeva Kəngərli, Ümgülsüm haqqında mətbuatda "Azərbaycan müəllimi" qəzeti, 28 may 1998, şair "Ümgülsümün faciəsi", "Azərbaycan" qəzetində ədəbiyyat məsələləri. Bakı, 2002 və s. məcmuələrdə çıxışlar etmişdir. Aydın Hüseynzadə isə 1992-ci ildə Ümgülsümün kitabını buraxdırıb.

Ümgülsüm 1918-ci ildə 28 mayısda Azərbaycan Demokratik Cumhuriyyəti elan olunan zaman poetik qəliblərin söz və məna gözəlliklərinin "tədbil", "qəlb", "istiqaq" növlərilə, eyni zamanda heyrətamiz təşbihlərlə bir istiqlal şeiri meydana gətirmişdir:

Sevimli bir gözəl mayıs günündə,
Təqərrüb etmişdi ilkindi çağı;
Dolaşırdım yaşıllıqlar içində,
Könlümü övladı bir gül yarpağı.
Güllüklərə baxdım, təsəlli buldum,
Dağılmış yurdumun şairi oldum.[2.,s.233]

**Səbinə Əhmədova**
***Əlyazmalar İnstitutu Farsdilli əlyazmalar şöbəsi filologiya üzrə fəlsəfə doktoru, aparıcı elmi işçi***
***ehmedova3@mail.ru***